*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 14 fevral 2018-ci il № 12 (2228) Qiymәti 25 qəpik


Ali Baş Komandan İlham ƏLİYEV:

*...Bizim tarixi torpaqlarımız İrəvan xanlığıdır, Zəngəzur, Göyçə mahallarıdır. Bunu gənc nəsil də, dünya da bilməlidir. Mən şadam ki, bu məsələ ilə bağlı - bizim əzəli torpaqlarımızın tarixi ilə bağlı indi sanballı elmi əsərlər yaradılır, filmlər çəkilir, sərgilər təşkil olunur. Biz növbəti illərdə bu istiqamətdə daha fəal olmalıyıq və dünyanın müxtəlif yerlərində sərgilər, təqdimatlar keçirilməlidir. Çünki İrəvan bizim tarixi torpağımızdır və biz azərbaycanlılar bu tarixi torpaqlara qayıtmalıyıq. Bu, bizim siyasi və strateji hədəfimizdir və biz tədricən bu hədəfə yaxınlaşmalıyıq.*

# Tarixi torpaqlarımıza qayıdış Azərbaycan dövlətinin strateji siyasətidir



*Qədim dövlətçilik tarixinə malik olan Vətənimiz zəngin yerüstü və yeraltı sərvətləri ilə daim dünyanın böyük dövlətlərinin diqqətini cəlb edib və Azərbaycanın mühüm geosiyasi məkanda yerləşməsi də müxtəlif vaxtlarda bəzi dairələrin marağına səbəb olub. Azərbaycan əsrlər boyu tarixin çətin sınaqları ilə üzləşib, dövlətçiliyi uğrunda gərgin mübarizələr aparmağa məcbur olub. Bu gün ölkəmizin tarixi həqiqətlərinin geniş təbliğ edilməsi nəticəsində dünya ictimaiyyəti əzəli torpaqlarımızda digər millətlərin necə məskunlaşması, ərazi bütövlüyümüzün niyə hərbi təcavüzlərə məruz qalması barədə kifayət qədər məlumatlıdır.*

Dövlətin və xalqın maraqlarını ifadə edən Azərbaycan Prezidenti İlham Əliyev bütün çıxış və bəyanatlarında birmənalı olaraq ifadə edir ki, müxtəlif dövrlərdə tarixi torpaqlarımız ermənilər tərəfindən işğal edilib və ata-baba ərazilərimizdə Ermənistan dövləti yaradılıb. Fevralın 8-də Yeni Azərbaycan Partiyasının VI qurultayında çıxış edən dövlətimizin başçısı yenə beynəlxalq qurumlara və işğalçı ölkəyə mesaj olaraq bildirdi ki, biz tarixi torpaqlarımızı da unutmuruq. "Bu da gələcək fəaliyyətimiz üçün istiqamət olmalıdır, necə ki, biz bu gün də bu istiqamətdə iş görürük. Bizim tarixi torpaqlarımız İrəvan xanlığıdır, Zəngəzur, Göyçə mahallarıdır. Bunu gənc nəsil də, dünya da bilməlidir...".

Azərbaycan dövlətinin bu məsələlər ətrafında prinsipial mövqeyi, əslində, vacib tarixi həqiqətləri xatırladır, dünyanın super dövlətlərinin dəstəyi nəticəsində torpaqlarımızın zaman-zaman yadellilər tərəfindən işğal edildiyini sübuta yetirir. Prezidentin çıxışı bir sıra aspektlər haqqında düşünməyi zəruri edir. Birincisi, indiki Ermənistan tarixi Azərbaycan torpaqlarında xalqımızın iradəsinə zidd olaraq yaradılıb. İkincisi, erməni xalqı xarici güclərin dəstəyi ilə tarixi Azərbaycan ərazilərində öz müqəddəratını həll edib. Prezident İlham Əliyev də bəyan edir ki, Azərbaycan dövləti və xalqı belə bir hadisənin ikinci dəfə təkrarlanmasına yol verməyəcək. Üçüncü bir aspekt: əgər münaqişə həll olunarsa, ermənilərin Dağlıq Qarabağda Azərbaycan vətəndaşı kimi yaşamaq hüququ olduğu kimi, azərbaycanlıların da tarixi torpaqlarımızda - Göyçədə, Zəngəzurda, İrəvanda və digər ərazilərdə yaşamaq hüququ vardır.

**(Ardı 3-cü səhifədə)**

AZƏRBAYCAN ORDUSU

# Ali Baş Komandanın tapşırıqları Azərbaycan Ordusunun rəhbər heyətinə çatdırılıb

*Fevralın 10-da Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xidməti müşavirə keçirilib.*



Müdafiə nazirinin müavinləri, qoşun növləri komandanları, nazirliyin baş idarə, idarə, xidmət rəisləri, birlik komandirlərinin iştirakı ilə keçirilən müşavirəyə videobağlantı vasitəsilə cəbhə bölgəsində yerləşən birlik və birləşmələrin məsul zabitləri də cəlb olunublar.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Yeni Azərbaycan Partiyasının VI qurultayındakı çıxışı, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və Azərbaycan Ordusu barədə söylədiyi fikirləri vurğulayan Müdafiə naziri, cari ildə qarşıda duran vəzifələri diqqətə çatdırıb.

Ali Baş Komandanın ordu quruculuğunun prioritet məsələ olması, ölkəmizin silahlanması, eləcə də 2016-cı ilin aprel döyüşləri zamanı Azərbaycan Ordusunun şanlı tarixi qələbə əldə etməsi barədə səsləndirdiyi fikirləri xüsusi qeyd edən nazir bildirib ki, dövlətimiz və xalqımız tərəfindən Azərbaycan əsgərinə hər zaman yüksək qiymət verilir.

Cəbhə xəttində əməliyyat şəraitində yaranmış son vəziyyətin təhlilini aparan nazir qoşunların döyüş tapşırıqlarını yerinə yetirməyə daim hazır vəziyyətdə olması, şəxsi heyətin təhlükəsizliyinin təmin edilməsi, onların döyüş və mənəvi-psixoloji hazırlığının təkmilləşdirilməsi, bilik və bacarıqlarının artırılması, o cümlədən digər istiqamətlərdə komandir və rəis heyəti qarşısında müvafiq tapşırıqlar qoyub.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti, foto gizir Elmar ZEYNALOVUNDUR**

## Dövlət sərhədində növbəti təxribat törədən düşmən öz avtomobil texnikasını yandıraraq geri çəkilib

Ermənistanın Azərbaycan-Ermənistan dövlət sərhədini pozmaq məqsədilə Qazax rayonu istiqamətində həyata keçirdiyi növbəti təxribatı uğursuzluqla nəticələnib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, fevralın 11-də səhər saatlarında hava şəraitinin dumanlı olmasından istifadə edərək düşmən ordumuzun ön xətt mövqeləri istiqamətində hərəkətə cəhd göstərib. Mövqelərimiz istiqamətində hərəkət edən Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-diversiya qrupuna məxsus "UAZ" markalı avtomobil bölmələrimiz tərəfindən xüsusi texniki müşahidə vasitələri ilə vaxtında aşkar edilərək nəzarətə götürülüb.

Görülən qabaqlayıcı tədbirlər nəticəsində erməni kəşfiyyat qrupunun irəliləməsinin qarşısı dərhal alınıb.

Geri çəkilməyə məcbur edilən düşmən qrupu ona məxsus avtomobili ataraq ərazini tərk edib. Öz mövqelərinə geri çəkilən düşmən ərazidə qalan "UAZ" avtomobilinə atəş açmaqla onu yandıraraq məhv edib.

# Müdafiə naziri hərbi andiçmə mərasimində iştirak edib



*Fevralın 11-də Müdafiə Nazirliyinin tabeliyində olan hərbi hissə və birləşmələrdə gənc əsgərlərin andiçmə mərasimi keçirilib.*

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun başçılığı ilə nazirliyin rəhbər heyəti “N” hərbi hissəsində təşkil olunan tədbirdə iştirak edib.

Şəxsi heyətin təntənəli mərasimə hazır olması barədə Müdafiə nazirinə məruzə olunduqdan sonra hərbi rituala uyğun olaraq döyüş bayrağı sıra meydanına gətirilib, şəxsi heyət Dövlət himnini ifa edib və tədbir açıq elan olunub.

Gənc əsgərlər təntənəli surətdə hərbi andı qəbul etdikdən sonra mərasimdə iştirak edən general-polkovnik Zakir Həsənov Azərbaycan Ordusunda yeni xidmətə başlayan şəxsi heyəti bu gün münasibətilə təbrik edib və tövsiyələrini çatdırıb.

Müdafiə naziri qeyd edib ki, bu andan etibarən onlar da Azərbaycan Ordusunun əsgərləridir və Vətənə, dövlətə, Ali Baş Komandana, hərbi anda sadiq olaraq bütün şəxsi heyət kimi Silahlı Qüvvələrin Ali Baş Komandanı tərəfindən qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsinə hər an hazır olmalıdırlar.



Digər çıxış edənlər də gənc əsgərləri hərbi and içmələri münasibətilə təbrik edərək onlara nizam-intizamlı olmağı, ərazi bütövlüyümüzün bərpa olunması naminə Vətənin müdafiəsində ayıq-sayıq olmalarını arzu ediblər.

Gənc əsgərlər təntənəli marşla tribuna önündən keçdikdən sonra qonaqlar hərbi hissədə yaradılmış şəraitlə tanış olub, əsgər yataqxanaları, yeməkxana, hamam-camaşırxana kompleksi, eləcə də digər inzibati və xidməti binalara baxıblar.

Mərasim bayram naharı və konsert proqramı ilə davam edib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti, fotolar gizir Mövlan NƏSİRZADƏNİNDİR**

# Xocalı soyqırımının 26-cı ildönümünün keçirilməsinə dair tədbirlər planı təsdiq edilib

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin sərəncamı ilə "Xocalı soyqırımının iyirmi altıncı ildönümünün keçirilməsinə dair tədbirlər planı" təsdiq edilib.

AZƏRTAC xəbər verir ki, tədbirlər planında Bakının Xətai rayonunda, Goranboy rayon mərkəzində və Ağcakənd qəsəbəsində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidələrin önünə əklil qoyulması mərasimlərinin keçirilməsi, ictimaiyyət nümayəndələri tərəfindən Şəhidlər xiyabanının ziyarət edilməsi, Azərbaycanın xarici ölkələrdəki səfirliklərində, nümayəndəliklərində, konsulluqlarında və diaspor təşkilatlarında soyqırımı ilə bağlı tədbirlərin (mətbuat konfranslarının, anım mərasimlərinin və s.) təşkili, xarici və yerli kütləvi informasiya vasitələri, o cümlədən teleradio kanallarında qanlı qırğını əks etdirən materialların yayılması və internet şəbəkəsində mütəmadi olaraq yenilənməsi nəzərdə tutulub.




Bundan başqa, ölkəmizdə fəaliyyət göstərən dini konfessiya və qurumlar tərəfindən Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr olunan anım mərasimləri təşkil ediləcək, idarə və təşkilatlarda, təhsil və mədəniyyət müəssisələrində xatirə gecələri, foto-rəsm sərgiləri, şahidlərlə görüşlər keçiriləcək, Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizəyə həsr olunan sənədli və bədii filmlər göstəriləcək.

Xocalılıların müvəqqəti məskunlaşdıqları şəhər və rayonlarda (Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Şəki, Goranboy, Bərdə, Sabirabad, Göyçay, Zaqatala, Oğuz, Balakən) dövlət qurumları rəhbərlərinin, Milli Məclisin deputatlarının və ziyalıların şəhid ailələri ilə görüşləri təşkil olunacaq.

Fevralın 26-da təhsil müəssisələrində ilk dərslər Xocalı soyqırımına həsr olunacaq, həmin gün saat 17.00-da bütün ölkə ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad ediləcək, Xocalı soyqırımı günü ilə əlaqədar respublikanın şəhər və rayonlarında, kənd və qəsəbələrində Azərbaycanın dövlət bayraqları endiriləcək.

# Tarixi torpaqlarımıza qayıdış Azərbaycan dövlətinin strateji siyasətidir

(Əvvəli 1-ci səhifədə)

İşğalçı Ermənistan digər bir məsələni də diqqətdən qaçırmamalıdır ki, əgər qəsbkarlıq siyasətini davam etdirərsə, Azərbaycan dövləti təkcə Qarabağı azad etməklə kifayətlənməyəcək, azərbaycanlılar öz tarixi yurdlarına qayıdışını da təmin etmək üçün mübarizə aparacaq. Azərbaycan münaqişənin sülh yolu ilə ədalətli həlli üçün səylərini əsirgəmir. Düşmən bilməlidir ki, xalqımız nə qədər humanizm sərgiləsə də, sonda öz sözünü qətiyyətlə deyəcəkdir. 2016-cı ilin aprel döyüşləri də Azərbaycan xalqının qətiyyətini və əzmini sübut etdi.

Bu gün ölkəmizdə hakimiyyət və xalqın möhkəm, sarsılmaz birliyi mövcuddur, cəmiyyətimizdə yüksək döyüş ruhuna malik olan gənc nəsil yetişib. Dövlət başçısının da düşmənə mesajında bir fakt aydınlaşır ki, Azərbaycanda dövlət və xalqın birliyi nəticəsində ölkənin hərbi qüdrəti yetərincə formalaşıb. Müasir silah və hərbi texnikalarla təchiz edilən Azərbaycan Ordusu istənilən an üzərinə düşən mühüm döyüş tapşırığını icra etməyə qadirdir.



Çox təəssüf ki, Ermənistanın işğalçı mövqeyini rəsmən bildirməyən Beynəlxalq Təşkilatlar bəzən Azərbaycanı sürətlə silahlanmada, ən müasir silahları idxal etməkdə qınayır. Bu qınağa rəsmi Azərbaycanın cavabı birmənalıdır. Prezident İlham Əliyev israrla qeyd edir ki, biz bütün imkanlardan, artan gücümüzdən, iqtisadi potensialımızdan, hərbi gücümüzdən istifadə etməliyik ki, ölkəmizin ərazi bütövlüyü təmin olunsun. "Əlbəttə, hərbi sahədə apardığımız siyasət özünü tam doğrultdu. Biz bu siyasəti uzun illərdir ki, aparırıq. Bu məsələ ilə bağlı bəzən bizə iradlar ünvanlanır ki, nə üçün Azərbaycan silahlanır, hərb quruculuğuna, ordu quruculuğuna vəsait ayırır. Biz isə Ermənistandan fərqli olaraq bu işləri öz imkanlarımız daxilində, öz vəsaitimiz hesabına, öz hesabımıza görürük...". Azərbaycan öz qanuni ərazilərini işğaldan azad etmək üçün ordusunu gücləndirməkdə, ordu quruculuğunu daha da inkişaf etdirməkdə tam haqlıdır.

Bu gün Azərbaycan Ordusu müasir silahlarla təmin olunur, Azərbaycanın qabaqcıl hərbi sənayesi yaranıb və bir çox hərbi texnikalar ölkəmizdə istehsal edilərək ordunun ixtiyarına verilir. Təlimlərə son istehsal nümunələri olan hərbi texnikalar, zirehli döyüş maşınları çıxarılır. Bu texnikaları idarə edən peşəkar hərbi kontingentimiz formalaşıb və bu da son illər ordu quruculuğunda həyata keçirilən səmərəli islahatların nəticəsidir.

Azərbaycanın sürətlə silahlanması, öz hərbi qüdrətini artırması ərazi bütövlüyümüzü təmin etmək üçündür.

Bu yaxınlarda internet saytlarından birində Ermənistanın keçmiş Müdafiə nazirinin etirafı verilib. Erməni general haqlı olaraq vurğulayır ki, Azərbaycan hərbi qüdrətinə görə onlarla müqayisədə böyük üstünlüyə malikdir. Əslində, iki il əvvəl baş verən aprel döyüşlərindən sonra da işğalçı dövlətin analitikləri və tanınmış hərbi ekspertləri bu müqayisəni qeyd edirdilər. Bu gün də əksər erməni ekspertləri cəsarətlə vurğulayır ki, krimonogen hərbi-siyasi rejim Ermənistanı uçuruma yuvarlayıb.

Ermənistanın işğalçılıq siyasətinin davam etdirilməsi bu ölkəni mühüm iqtisadi layihələrdən təcrid edib və məhz buna görə də erməni xalqı ildən-ilə yoxsullaşır. İşğalçı ölkənin ordusunda vəziyyət daha dözülməzdir. Gənclər intizamsız, qayda-qanun olmayan orduda xidmət etmək istəmirlər və buna görə də Ermənistan ordusunda intihar, xidmət yerini özbaşına tərketmə halları durmadan çoxalır. İşğalçı ölkənin ordusunda xidmət etməyə çağırış yaşlı gənclər çatışmır.

Gələcəyə ümidsiz olan Ermənistandan fərqli olaraq bu gün Azərbaycanın mübariz gəncliyi formalaşıb və bu qüvvə məlum aprel savaşında olduğu kimi, hər an üzərinə düşən müqəddəs vəzifəni yerinə yetirməyə - Vətənimizin ərazi bütövlüyünü təmin etməyə tam hazırdır.

Ötən həftə Müdafiə Nazirliyində keçirilən xidməti müşavirədə Yeni Azərbaycan Partiyasının VI qurultayında Prezident İlham Əliyevin ordu quruculuğu ilə bağlı dediyi fikirlərə diqqət yetirildi. Bütün idarə və xidmət rəislərinin, hərbi hissələrin məsul zabitlərinin iştirak etdiyi bu tədbirdə Müdafiə naziri general-polkovnik Zakir Həsənov çıxış edərək ölkə başçısının ordunun inkişafına verdiyi yüksək qiyməti müşavirə iştirakçılarının diqqətinə çatdırdı, əminliklə bildirdi ki, bu yüksək etimadı doğrultmaq, qarşıda duran vacib tapşırıqları yerinə yetirmək üçün Azərbaycan Ordusunun şəxsi heyəti bundan sonra da mübarizlə olacaqdır.

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**Rəhim YUSİFLİ,**
**Coşqun CƏFƏROVUNDUR**

---

*Gənc zabitlərimiz*

## "Ali Baş Komandanımızın, xalqımızın qarşısında bir şərəf borcumuz var..."



XXI əsrdə Azərbaycanda baş verən qlobal dəyişikliklər ordumuzu da əhatələyib. Ölkədə baş verən dəyişikliklər orduda da yeni inkişaf mühitinin yaradılmasını, zabitlərin və əsgərlərin peşəkar hazırlığının yeni müstəviyə çıxarılmasını təmin edib. Bu gün yeni standartlar əsasında fəaliyyət göstərən Azərbaycan Ordusu güclü infrastruktura və maddi-texniki bazaya malik olmaqla yanaşı, yüksək texnologiya ilə də təmin olunub. Bu amillərin heç biri peşəkar zabitlər olmadan ordunun düzgün inkişafını təmin edə bilmir. Peşəkarlığa gedən yol isə zabitin aldığı təhsilin və təcrübənin hesabına başa gəlir.

"N" hərbi hissəsində leytenant Elvin Eyvazov peşəkarlığa gedən yola qədəm qoyan zabitlərdəndi. 1994-cü ildə Şirvan şəhərində anadan olub, Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olmaqla arzusunu həyata keçirib və təhsilini xarici hərbi təhsil müəssisəsində alıb.

"Harada təhsil almağımızdan asılı olmayaraq vətəndaş kimi, Vətənimizin, zabit kimi ordumuzun inkişafına xidmət etmək vəzifə borcumuzdur", - deyə leytenant Elvin Eyvazov söhbətə başlayır. - Azərbaycan Ordusunun gələcəyinin daha etibarlı və inamlı olmağını istəyiriksə, mütləq təhsilli olmağımız vacibdir. Yaxşı bilirik ki, indiki dönəmdə ordunun gələcəyi onun hərbi təhsil sisteminin səviyyəsi ilə ölçülür. Hərbi təhsil sistemimiz isə Ümummilli Liderimizlə bağlıdır. Bu gün bir zabit kimi şərəf duyuram ki, əsası Ulu Öndər tərəfindən qoyulan Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil almaqla yanaşı, ölkəmizi xarici hərbi təhsil müəssisəsində də təmsil etmişəm. Ən vacibi odur ki, yiyələndiyim peşəni qəlbən sevir, hərbi qulluqçu kimi millətimə, xalqıma və dövlətimə xidmət edir, Nizamnamələrin tələblərinə uyğun olaraq hərəkətlərimə məsuliyyətlə yanaşır, bir sözlə, hərbçi nüfuzunun keşiyində dayanmağa çalışıram. Neçə aydır taqım komandiriyəm və bu müddət ərzində tabeçiliyimdə olan şəxsi heyətə sevgi ilə yanaşır, hər birini bir şəxsiyyət kimi dəyərləndirir, onların hazırlıqlı əsgər kimi formalaşması və hərbi təcrübəsinin artması üçün əlimdən gələni əsirgəmirəm."

Leytenant Elvin Eyvazov hesab edir ki, xalqımızın Qarabağ sevgisi qələbəyə aparacaq. "Ona görə ki, bu sevgini yaşatmaq naminə canlarından keçməyə hazır olan Azərbaycan Ordusu var, onun minlərlə şəxsi heyəti var. Bu gün ordumuzun şəxsi heyəti Azərbaycan dövlətinin gələcəyi, torpaqlarımızın işğaldan azad olunması naminə hərbi təcrübəsini artırmaq üçün əlindən gələni əsirgəmir və hər bir zabit xidmətə məsuliyyətlə yanaşır. Hamı yaxşı bilir ki, ordunun döyüş qabiliyyəti hərbi qulluqçunun, əsasən də əsgərin hərtərəfli hərbi hazırlığından keçir. Ermənistan tərəfindən işğal edilmiş torpaqlarımızın azad edilməsi üçün maddi-texniki bazaya malik olan ordunun olması və şəxsi heyətin hərbi təcrübəsinin artması əsas şərtdir. Bundan başqa yolumuz yoxdur. Çünki bizim bir vətəndaş kimi, bir zabit kimi xalqımızın, dövlətimizin, Ali Baş Komandanımızın qarşısında bir şərəf borcumuz var..."

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

---

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ordumuzun nümayəndələri beynəlxalq tədbirlərdə iştirak edirlər

Fevralın 12-dən 16-dək Ankara şəhərində (Türkiyə Respublikası) terrorizmlə mübarizə, 23-dək isə Qarmiş-Partenkirxen şəhərində (Almaniya Federativ Respublikası) ardıcıl tərcümə metodologiyası kursları keçirilir.

Tədbirlərdə Azərbaycan Ordusunun nümayəndələri də iştirak edirlər.

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***13 fevral 2018-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 130 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan, Voskevan kəndlərində və adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber, Paravakar, Ayqeovit kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Fərəhli, Quşçu Ayrım, Qızılhacılı, Bala Cəfərli kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Mosesqex, Çinari kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli, Ağdam, Koxanəbi, Muncuqlu kəndlərində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli, Zamanlı kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Şıxlar, Baş Qərvənd, Cəvahirli, Qaraqaşlı, Novruzlu, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

AZƏRBAYCAN ORDUSU

# Hərbi hissələrdə andiçmə mərasimi

*Fevralın 11-də Müdafiə Nazirliyinin tabeliyində olan hərbi hissə və birləşmələrdə gənc əsgərlərin andiçmə mərasimi keçirilib. Əlahiddə Ümumqoşun Ordu, hərbi birliklər, Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri, Raket və Artilleriya Qoşunları, eləcə də digər təminat hərbi hissələrinin ərazilərində təşkil edilmiş mərasimlərdə hərbi rituala uyğun olaraq ümummilli liderimiz Heydər Əliyevin və ərazi bütövlüyümüz uğrunda şəhid olanların ruhu bir dəqiqəlik sükutla yad edilib. Döyüş bayrağı sıra meydanına gətirilərək Dövlət himnimiz səsləndirilib və tədbir açıq elan olunub. Gənc əsgərlər təntənəli surətdə hərbi andı qəbul ediblər.*





Soyuq bir qış səhəri olmasına baxmayaraq, Azərbaycanın bölgələrindən gələn müxtəlif kateqoriyalı insanlar - valideynlər, ictimaiyyət nümayəndələri "N" hərbi hissəsinin nəzarət-buraxılış məntəqəsinin qarşısına toplaşıblar. Onlar Vətənin mənafeyini, suverenliyini, ərazi bütövlüyünü qoruyacaq, bunun üçün "Hərbi and" içəcək övladları ilə görüşə tələsirlər. İnsanların gözlərində oxunan sevinc hissi deyir ki, bu soyuq qış günü ömürlərinin ən gözəl günü kimi yaddaşlarına əbədi həkk olunacaq.

Andiçmə mərasimi Müdafiə naziri general-polkovnik Zakir Həsənova məruzə ilə başladı. Zabit Ədalət Hacıyev Müdafiə nazirinə gənc əsgərlərin andiçmə mərasiminə hazırlıqları ilə bağlı məruzə edir.

Hərbi hissənin yaranması günü və andiçmə münasibətilə şəxsi heyəti, veteranları, valideynləri və qonaqları təbrik edən Müdafiə naziri general-polkovnik Zakir Həsənov zabit və əsgərlərə Vətəni müdafiə etmək kimi şərəfli və məsuliyyətli xidmətlərində uğurlar arzuladı. Müdafiə naziri qeyd etdi ki, Ulu Öndərin siyasi xəttinin layiqli davamçısı Prezident İlham Əliyevin uzaqgörən və məqsədyönlü siyasəti nəticəsində Azərbaycan uğurla inkişaf edir, sosial-iqtisadi məsələlər öz həllini tapır, bütün sahələr, o cümlədən ordumuz da güclənir.

Polkovnik Qədir Nəsibov Müdafiə nazirini və qonaqları salamlayaraq bildirdi ki, müstəqil dövlətimizin memarı və qurucusu olan ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan, istənilən tapşırığı yüksək səviyyədə yerinə yetirmək iqtidarında olan Azərbaycan Ordusu bu gün dünyada ən müasir standartlara cavab verə biləcək səviyyədə formalaşıb. Azərbaycanın güclü orduya malik olması ölkənin ərazi bütövlüyünün və suverenliyinin bərpası üçün zəmin yaradır.

Gənc əsgər Səxavət İsmayılov çıxışında onunla birlikdə çiyin-çiyinə Vətənə xidmət edən əsgər qardaşlarına və valideynlərə gözaydınlığı verdi: "Sevinirəm ki, bu gün mən Azərbaycan Ordusunun əsgəriyəm. Onun üçün biz gənc əsgərləri bu səviyyəyə gətirən komandir və əsgərlərimizə təşəkkürümü bildirirəm. Bundan sonra borcumuz qürurla, fəxrlə xidmət etməkdir. Çünki bu gündən biz Azərbaycan Ordusunun tam hüquqlu əsgəri və ağrılı yerimiz olan Qarabağı geri almağa qadir, şəhidlərin qanını yerdə qoymayacaq əsgərlərik. Biz yeni nəsil, yeni qüvvə, yeni orduyuq!"

Mərasim başa çatdıqdan sonra valideynlər və ictimaiyyət nümayəndələri əsgər yataqxanasında, hamam-camaşırxana kompleksində, əsgər yeməkxanasında yaradılan şəraitlə yaxından tanış oldular. Həmin ərəfədə valideynlərlə görüşüb söhbət etmək imkanı qazandıq.

Əsgər atası Əzizağa Aslanov dedi ki, bu gün hər birimiz Vətənin müstəqilliyinin daimi, əbədi, dönməz olması yolunda səyimizi əsirgəməməliyik. "Vətənini şərəflə qorumağa and içənlərin arasında mənim də övladım var. Oğlum yaxşı dərk edir ki, hərbi xidmət onun vətəndaşlıq borcudur. Arzum budur ki, torpaqlarımız işğaldan azad olunsun, bir əsgər kimi oğlumun da həmin qələbədə payı olsun."

Əsgər nənəsi Süreyya Mirzəliyeva bildirdi ki, insanlar həyata gəlişinə görə anaya borcludurlar. "Anaların bir borcu da var - Vətəni sevən, onun qorumaq məsuliyyətini anlayan oğullar yetişdirmək. Çox şükürlər olsun ki, bu gün balamın balası Vətənin əsgəridir. Onlar bilməlidirlər ki, Vətənimizin keşiyində layiqincə dayanmalıdırlar."

"İllərdi övladımızın hərbi formanı geyəcəyi günü gözləyirdik", - deyə Fərman Paşayev söhbətə başladı. - Oğlum bu gün Vətən qarşısında borcunu layiqincə yerinə yetirəcəyinə and içdi. Bu anları xoşbəxt anlar kimi hər zaman xatırlayacam. Oğlum bir anlıq məni xidmət etdiyim illərə apardı. Xidmət illərimi yada salmağa vasitəçi oldu. Ancaq fərq ondan ibarətdir ki, oğlum müharibə şəraitində yaranan, döyüşə-döyüşə formalaşan Azərbaycan Ordusunun əsgəridir. Bir valideyn kimi tövsiyə edirəm ki, oğlumun simasında bütün əsgərlər silahı, texnikanı dəqiqliklə öyrənsinlər və hər an xalqımıza Qələbə bəxş etməyə hazır olsunlar.

Uzun müddət torpaqlarımızın işğaldan azad olunması üçün mübarizə aparan müharibə veteranı, əsgər atası Vasif Kərimov qeyd etdi ki, müharibə veteranlarının keçdiyi döyüş yolunun gənclər arasında təbliğ olunması onların vətənpərvər ruhda böyüməsi baxımından əhəmiyyətlidir. "Ən azından bu istiqamətdə təbliğatın təşkil edilməsi vətənpərvər gənclərin yetişməsində xüsusi rol oynaya bilər. Hərbi xidmətin gənclərin həyatında oynadığı rol çox böyükdür. Onlar dərk etməlidirlər ki, hərbi xidmət hər bir vətəndaşın borcudur. Xüsusən də 20 faiz torpağı işğal altında olan dövlətin gənclərindən gedir. Fəxr edirəm ki, oğlum Orxan Kərimov da əsgər yoldaşları ilə Vətənə sədaqət andı içir. Artıq onlar Prezident, Ali Baş Komandan İlham Əliyevin əmrlərini icra etməyə, onun tapşırığı ilə Vətənimizin ərazi bütövlüyü və torpaqlarımızın azad olunması üçün sipər olmağa hazırdırlar".

Mərasim bayram naharı və H.Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin konsert proqramı ilə davam etdi.

* * *

Naxçıvan qarnizonu qoşunlarında yanvar ayı ərzində həqiqi hərbi xidmətə çağırılmış gənc əsgərlərin andiçmə mərasimləri keçirilib.

Əlahiddə Ümumqoşun Orduda hərbi andiçmə mərasimində gənc əsgərlər təntənəli surətdə Vətənə sədaqət andı içərək Azərbaycan Respublikası Silahlı Qüvvələri sıralarına tam hüquqlu həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi daxil olublar.

Tədbirdə zabitlər, əsgərlər, valideynlər və digər çıxış edənlər hərbi andı qəbul edən əsgərləri təbrik edərək xidmətlərində uğurlar arzulayıblar.

Çıxışlardan sonra Əlahiddə Ümumqoşun Ordu Komandanı general-leytenant Kərəm Mustafayevin təbriki şəxsi heyətə çatdırılıb. Bildirilib ki, 2017-ci tədris ilində Əlahiddə Ümumqoşun Ordunun şəxsi heyəti üzərinə düşən vəzifələri uğurla icra edib, hazırlıq planında göstərilmiş tədbirlər tam yerinə yetirilib və Silahlı Qüvvələrdə döyüş hazırlığına, intizamın nəticələrinə görə Əlahiddə Ümumqoşun Ordu birinci yeri tutub. Həmçinin, idman yarışlarında qazanılan nailiyyətlərin nəticəsidir ki, Naxçıvan Ordu İdman Klubu da yaradılıb. Ordumuzun silah arsenalında ən müasir, yüksək dəqiqliyə malik silah və texnikalar mövcuddur. Bunun üçün də hərbi andı yenicə qəbul etmiş əsgərlərimiz çalışmalıdırlar ki, komandirlər tərəfindən öyrədilənləri, silah və texnikanın sirlərini dərindən mənimsəsinlər.

Təbrik oxunduqdan sonra şəxsi heyətin tribunanın önündən təntənəli keçidi olub.

Xüsusi təyinatlı bölmənin nümunəvi çıxışları hərbi andiçmə mərasimini daha maraqlı edib.

* * *

Bu gün yağış yağmır. Bü günün sevinci dünənki havanı yumşaldıb. Bu gün yağış yağsaydı da bu fərəhin, bu sevincin ovqatını zəifləde bilməzdi; gənc əsgərlərin andiçmə mərasimidi. Valideynlər illərlə bu günü, bu günün sevincini gözləyib. "Oğlum əsgəridi!" - qürurunu yaşadıqları anların ən gözəli olacaq bu gün.

Oğlunu gənc əsgərlərin sırasında tanıya bilməyən ana könül sıxıntısı çəkmir, "Oğlumun yoldaşları da oğlumdu!" deyir. Təsəlli biçimli bu kövrək pıçıltını eşidən analar səssiz kəlmələrlə ona haqq qazandırır. Anaların baxışları nizami qaydada düzülmüş gənc əsgərlərdən üzülmür.

Qışda payız havası var. Xoş hava xoş ovqatı elə gözəl tamamlayır ki!

Qələbəlikdi. Valideynlər də, ictimaiyyətin nümayəndələri də tədbirin başlayacağı anın intizarındadı. Qürurlandığı bütün çalarlarıyla sezilən bir gəncin dedikləri kəlmə-kəlmə düşüncələrimə hopur.

- İki il əvvəl hərbi and içdiyim günün sevincinin eynini bu gün də yaşayıram. Bir azdan qardaşım da Vətənə sədaqət andı içəcək. Çox arzulayıram ki, qardaşım torpaqlarımızı işğaldan azad edəcək əsgərlərimizin sırasında olsun. İnanıram ki, belə də olacaq. İnanıram ki, sonbeşiyimiz dövlət sərhədlərimizdə xidmət edəcək...

Gənc əsgərlərin sırasına baxan anaların ürəyindən keçənləri duymaq çətin deyil...



**(Ardı 5-ci səhifədə)**

# Hərbi hissələrdə andiçmə mərasimi

(Əvvəli 4-cü səhifədə)

Diqqətimi bir ağsaqqalın könül xoşluğuna dönən kəlmələri çəkir.

- Mən də, oğlum da Sovet ordusunda xidmət etmişik. Mən müharibə qurtarandan az sonra, oğlum 86-88-ci illərdə. Bizim xidmət etdiyimiz vaxtlarda əsgərə münasibət də, əsgərlərin şəraiti də belə deyildi. Ali Baş Komandanın orduya diqqət və qayğısı göz önündədir. Ən müasir silahlarımız da var, onların "dilini bilən" zabitlərimiz də. Əsgərlərimizin heç biri məqamında Vətən naminə can əsirgəməz. Nəvəm belə bir orduda xidmət edəcək. Onun nümunəvi əsgər olacağına da, torpaqlarımızın işğaldan azad ediləcəyinə də inanıram.

Babanın son kəlmələri ürəyimi dağa döndərir: babalar da inanır ki, torpaqlarımız işğaldan azad ediləcək. Babalar nəvələrini qalib əsgərlərin sırasında görmək istəyir.



Tədbir ənənəvi şəkildə başlayır. Arzular eynidi - gənc əsgərlər də hərbi nizamnamələr necə tələb edirsə, elə xidmət edəcək. İstəklər eynidi - torpaqlarımız işğaldan azad edilməlidi. Qürur eynidi - Azərbaycan Ordusu Cənubi Qafqazda ən güclü ordudu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bir kəlamına söykənən bu qürur yerə-göyə sığmır: "Azərbaycan Ordusu nəinki bölgədə, dünya miqyasında ən güclü ordular sırasındadır".



Əsgər atası sezilməsi çətin olmayan həyəcanla danışır. Bu həyəcanın bir çaları övlada, bir çaları orduya sevgidi:

- Mən müstəqil Azərbaycanın əsgəri olmuşam. Müstəqilliyin ilk illəriylə bu günləri müqayisə etmək mümkün deyil. İstər şərait, istərsə də silah-sursat, təchizat çox yüksək səviyyədədir. Biz atalar oğullarımızın bu orduda xidmətindən qürur duyuruq.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov son illərdə Silahlı Qüvvələrimizdə həyata keçirilən islahatlardan, islahatların nəticələrindən, ordu quruculuğundan danışır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin YAP-ın VI qurultayında dediyi bir fikri xatırladır: “Hərbi sahədə apardığımız siyasət özünü tam doğrultdu”.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov gənc əsgərləri də, valideynləri də bu yaddaqalacaq gün münasibətilə təbrik edir....

Bir atanın dediklərini əsgər atalarının təəssüratı bilirəm:

- Bu səmimiyyət, bu etimad müqabilində layiqli vətəndaş kimi böyütdüyümüz oğullarımız nümunəvi xidmət edəcək.

Hərbi səhra geyimli 8-9 yaşlı bir uşaq - az sonra biləcəm ki, adı Yağmurdu, atasıyla Ağcabədidən gəlib - Müdafiə nazirini hərbi qaydada salamlayır. Belə gözlənilməz duyğusal məqamı bir mətləbin işığı bilirəm. Qürurlanıram ki, uşaqlar əsgəri ruhda böyüyür, uşaqlar da, yeniyetmələr də ordumuzu sevir, ata qürurlanır ki, qızı ordunun nə olduğunu bilir...

Gənc əsgərin çıxışı hamıya könül xoşluğu verir. Onun düşüncələri, "Vətən sevgisi deyir ki, Azərbaycan əsgəri yüksək mənəvi-psixoloji hazırlığa malikdir. Vətənə sədaqət andı içən gənc əsgər kimi söz veririk ki, biz də komandirlərimizin tövsiyyələrinə əməl edəcək, kifayət qədər yüksək döyüş hazırlığına malik olan əsgərlərin təcrübəsindən bəhlənəcəyik" - inamı hamını duyğulandırır. Qətiyyət var əsgərin səsində. Bu qətiyyət nəyə qadir olduğunu 2016-cı ilin aprelində təsdiqlənmişdi. Bu qətiyyət o döyüşlərdə zabitlərimizin, əsgərlərimizin Vətən sevgisiylə çulğaşmışdı. Bu qətiyyət deyir ki, sülh danışıqları baş tutmasa, torpaqlarımızı işğaldan döyüşlə azad edəcəyik. Bu qətiyyət deyir ki, Azərbaycan ordusunun hər əsgəri Mübariz İbrahimovun, Çingiz Qurbanovun davamçısı olmağa qadirdir...

Gənc əsgərlərin andiçmə mərasimi həm də ordu ilə cəmiyyət arasında münasibətlərin doğunluğunu təmin edir. Həmin gün valideynlər, ictimaiyyət nümayəndələri hərbi hissədə yaradılmış şəraitlə hərtərəfli tanış olur, görür, gördüklərini ürəklərinə köçürürlər. Nəticə etibarı ilə ictimaiyyət ordu həyatıyla daha geniş miqyasda məlumatlandırılır.

Bir ananın dedikləri çəkir diqqətimi:

- Oğlum hərbi xidmətə çağırılanda bir az həyəcanlıydım. Gəldim, gördüm. Belə bir şəraitdə xidmət edən əsgərin anası heç zaman narahat olmamalıdır. Mən bütün əsgər anaları adından Ali Baş Komandana, Müdafiə Nazirliyinin rəhbərlərinə dərin təşəkkürümü bildirirəm. İnanıram ki, oğlum da nümunəvi xidmət edəcəkdir.

“Açıq qapı” günündə bir ananın dediklərini xatırlayıram: "Oğul böyüdürük ki, Vətənə xidmət etsin. Onun hərbi xidməti Vətən torpaqlarımızın müdafiəsi deməkdir. Qürurlanıram, sevinirəm ki, oğlum belə bir müqəddəs vəzifə yerinə yetirənlərin sırasındadır".

Anaların düşüncələri məni həmişə duyğulandırıb. Analar nə düşünürsə, Vətən üçün düşünür, dövlət, dövlətçilik üçün düşünür. O ananın da, bu ananın da öyüd-nəsihəti hər əsgər üçündür: Azərbaycan əsgəri ana öyüdünü heç zaman unutmaz. Bugünkü tədbir bu qənaətimi daha da dönməzləşdirir.

Gənc əsgərlər and içəndə Yağmur bir neçə addım qabağa çıxır, səsi gənc əsgərlərin səsinə qarışır: "...and içirəm..."...

Tədbir başa çatır...

Hava elə xoşdur ki!...

* * *

Səhərdir. Soyuq qış səhərində "N" hərbi hissəsinin nəzarət-buraxılış məntəqəsi önündə böyük qələbəlikdir. Respublikamızın müxtəlif bölgələrindən gəlmiş əsgər valideynləri, ictimaiyyət nümayəndələri, veteranlar yüksək səviyyədə təşkil olunmuş tədbirə qatılmağa gəlib. Polkovnik-leytenant Rüstəm Məmmədov onlara hərbi hissə haqqında məlumat verir.

Tədbir iştirakçıları mərkəzi meydanda mətin sıralarda dayanmış gənc əsgərlərə baxaraq qürur hissi keçirirlər. İllərlə bu günü gözləyən valideynlərin sevinci hədsizdir. Onların övladlarına bu gündən müqəddəs vəzifə sayılan Vətənin müdafiəsi etibar olunacaq.

Hərbi orkestrin müşayiəti ilə döyüş bayrağı meydana gətirildi.

Gənc əsgərlər əllərini müqəddəs bayrağa, silahlara qoyaraq hərbi andı qəbul etdilər.

Müdafiə Nazirliyinin nümayəndəsi, Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü Abdulla Qurbani Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun gənc əsgərlərə təbrikini çatdırdı, onları və valideynləri təbrik etdi. Ölkə rəhbərliyi tərəfindən ordu quruculuğuna həmişə böyük diqqət və qayğı göstərildiyini, bu işin uğurla davam etdirildiyini bildirdi:



- Azərbaycanın Milli Qəhrəmanı Çingiz Salman oğlu Qurbanov da bu hərbi hissənin yetirməsidir. O da hərbi andı bu hərbi hissədə qəbul etmişdi. 2016-cı ilin dekabrında göstərdiyi şücaətə görə “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görüldü. Ordumuzun sıralarında Mübariz, Çingiz kimi yüzlərlə, minlərlə fədakar oğullar xidmət edirlər. İnanırıq ki, hərbi andı qəbul edən Vətən oğulları da mərd, mübariz, mətin oğulların davamçısı olacaqlar.

Polkovnik-leytenant Rasim Manafov general-mayor Xəqani Cəbrayılovun gənc əsgərlərə müraciətini oxudu. Gənc əsgərlər adından çıxış edən Qabil Əmirli onlara göstərilən böyük etimadı doğruldacaqlarını, Çingiz, Mübariz kimi qəhrəmanların davamçıları olacaqlarını bildirdi.

Döyüşçü veteran Mübariz Quliyev, əsgər valideyni Cavanşir Quliyev və başqaları Azərbaycan Ordusunda son illər həyata keçirilən islahatların, Vətənə şərəfli xidmət üçün yüksək səviyyədə yaradılan şəraitə görə ölkə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildirdilər. Göyçay rayon sakini, uzun illər hüquq mühafizə orqanlarında çalışmış Qərib Səfərov Azərbaycan xalqının qədim qəhrəmanlıq tarixinə, zəngin mədəniyyətə malik olduğunu deyərək bildirdi ki, bu torpaq böyük dahilərin, sərkərdələrin, qəhrəmanların Vətənidir. İnanıram ki, xalqımızın, ordumuzun yenilməz birliyi və ölkə rəhbərliyinin qüdrəti ilə torpaqlarımız işğaldan azad olunacaq. Xalqımızın ən böyük istəyi olan qələbə sevincini tezliklə görəcəyik.

Azərbaycan Milli Elmlər Akademiyasının əməkdaşı Nəsir Nəsirov da ordumuzun yenilməz gücə malik olduğuna görə ölkə rəhbərliyinə minnətdarlığını bildirərək qeyd etdi ki, dövlətçilik fəaliyyətində əsas yer tutan ordu quruculuğuna göstərilən diqqətin bəhrəsidir ki, ordumuz regionun ən güclü, qüdrətli ordusudur. Beynəlxalq təşkilatlar da bu barədə rəylərini bildiriblər. Bu ordunu daha qüdrətli, qüvvətli edən igid, cəsur Vətən oğullarıdır. Bu oğullar Vətən torpaqlarını qətiyyətlə qoruyur. İnanırıq ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında ərazi bütövlüyümüz təmin olunacaq.

**"Azərbaycan Ordusu", fotolar**
**gizir**
**Mövlan NƏSİRZADƏ,**
**Anar ABDURƏHMANOV,**
**Nurlan MEHDİYEV,**
**Tural SƏRKƏROVUNDUR**

AZƏRBAYCAN ORDUSU



## Akademik Yaqub Mahmudov:

# Azərbaycan Xalq Cümhuriyyəti tariximizin ən şanlı səhifəsidir



*Rubrikamızın qonağı Milli Məclisin deputatı, Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun direktoru akademik Yaqub Mahmudovdur.*

**- Yaqub müəllim, 2018-ci il xalqımızın tarixində əlamətdar illərdən biri olacaq. Bu il xalqımız Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini qeyd edəcək. Qürurverici haldır ki, Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı sərəncamla 2018-ci il Azərbaycan Xalq Cümhuriyyəti İli elan edilib. Bir tarixçi alim üçün ikiqat sevinc deyilmi?**

- Dövlət rəhbərinin tariximizə xüsusi önəm verərək Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin bütün ölkə miqyasında geniş qeyd olunması haqqında sərəncamını, məncə bütün tarixçilər böyük sevinclə qarşıladılar. Qeyd etmək istəyirəm ki, institutumuzda aparılan tədqiqatlar məhz Prezident İlham Əliyevin təşəbbüsü və qayğısıyla nəşr olunur. Cümhuriyyətin 100 illiyinin qeyd olunması mühüm tarixi hadisədir və xalqımız üçün son dərəcə əlamətdardır.

**- Cümhuriyyət tariximizə verilən ən böyük dəyər ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır...**

- Mən 20 ilə yaxın Bakı Dövlət Universitetində tarix fakültəsinin dekanı işləmişəm. Ulu öndərimiz Heydər Əliyevin Cümhuriyyət tariximizlə dərindən maraqlanmasının canlı şahidiyəm. Bildirmək istəyirəm ki, neçə illər Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycan Demokratik Respublikası kimi təqdim olunurdu. Əlbəttə, dünyanın bir sıra ölkələrində, o cümlədən Avropa ölkələrində Cümhuriyyətin bu cür təqdim olunması müəyyən zərurətlə bağlı idi. Axı biz Şərqdə ilk demokratik respublika yaratmışıq. Amma onu qeyd edim ki, Cümhuriyyətin adının özünə qaytarılması ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır.

Yaxşı yadımdadır, o bu məsələ ilə çox ciddi maraqlanırdı. Qısa müddətdə Milli Arxiv İdarəsinin rəisi Ataxan Paşayevlə birlikdə təkliflərimizi hazırladıq. Ulu Öndər bu təkliflərlə tanış olduqdan sonra Azərbaycan Xalq Cümhuriyyəti adı rəsmən qəbul edildi. Və beləliklə, Ulu Öndərin xüsusi tapşırığıyla bütün elmi ədəbiyyatlarda Azərbaycan Demokratik Respublikası adı Azərbaycan Xalq Cümhuriyyəti ilə əvəz olundu. 1998-ci ildə Ümummilli Liderimizin təşəbbüsü ilə Cümhuriyyətimizin 80 illik yubileyi keçirildi. Bundan başqa, dahi rəhbərin xüsusi tapşırığı əsasında Cümhuriyyətin tarixini dolğun əks etdirən ensiklopedik lüğət hazırlandı. Ömrümün ən mənalı səhifələrindən biridir ki, Ulu Öndər bu vacib işə rəhbərliyi mənə tapşırmışdı. Bu işi uğurla başa çatdırmaq üçün tanınmış ziyalılarımızı bir araya topladıq. Tərəqqipərvər, elmi araşdırmalardan, cəfadan çəkinməyən bir özək yaratdıq və iki cildlik Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyasını nəşrə hazırladıq. Ulu Öndərin layiqli davamçısı, Prezident cənab İlham Əliyev də lazımi köməkliklər göstərdi və onun son dərəcə böyük qayğısıyla bu ensiklopediya çap olundu. Yeri gəlmişkən onu da qeyd edim ki, bu gün ölkə başçısı İlham Əliyevin göstərişiylə Xalq Cümhuriyyəti Parlamentinin fəaliyyət göstərdiyi binanın yanında "İstiqlal Bəyannaməsi" abidəsi ucalır. Düşünürəm ki, iki cildlik ensiklopediya da tariximizə ən dəyərli töhfədir.

**- Müstəqil Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. Bəs Cümhuriyyətin varislik prinsiplərini müəyyənləşdirən istiqamətlər hansılardır?**

- Müasir dövlət quruculuğu Cümhuriyyət dövründən başlayıb. Cümhuriyyət dövründə parlament fəaliyyət göstərib, dövlətçilik atributlarımız, ordumuz, himnimiz, gerbimiz yaradılıb. Ona görə də biz Azərbaycan Xalq Cümhuriyyətinin varisiyik. İftixar hissiylə deyirəm ki, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması təkcə bizdə deyil, bütövlükdə Türk dünyasında, müsəlman Şərqində parlaq bir hadisədir. Bizim yaratdığımız Cümhuriyyət ilk parlamentli respublikadır. Bu baxımdan, Azərbaycan Xalq Cümhuriyyəti tariximizin ən şanlı səhifələrindən biridir. O öz demokratikliyinə görə, Avropa respublikalarının heç birindən geri qalmırdı. "İstiqlal Bəyannaməsi"ndə ölkəmizin ərazisində yaşayan bütün xalqlara dilindən, dinindən, irqindən, milliyyətindən asılı olmayaraq bərabər hüquq verilmişdi.

**- Azərbaycanın şanlı hərb ənənələri var. Müasir ordumuz da Cümhuriyyət ordusunun tarixi varisidir.**

- Bu barədə danışarkən xüsusi olaraq qeyd etməliyəm ki, Azərbaycanın ordu tarixi təkcə Cümhuriyyətlə bağlı deyil. Azərbaycan xalqının dövlətçilik tarixi beş min ildən çoxdur. Manna, Midiya, Şimalda Albaniya, Cənubda Atropatena kimi güclü dövlətlərimiz var idi. Bu dövlətlər güclü ordu ilə idarə edilirdi. Roma imperiyası torpaqlarımızı ilhaq edə bilməmişdi. Bizim Tomris kimi qadın sərkərdəmiz olub. O, Orta Asiyadan Misirə qədər ərazilərə sahib olan ikinci Kirin qüvvələrini darmadağın etmişdi. Tarixdə Şəmsəddin Eldəniz, Qızıl Arslan, Uzun Həsən, Məhəmməd Cahan Pəhləvan, Şah İsmayıl Xətai, Şah Abbas kimi qüdrətli sərkərdələrimiz var. Onlar böyük ordular yaratmaqla Azərbaycan imperiyalarını idarə ediblər. Qürur hissi keçirirəm ki, dünya hərb tarixində Nadir Şah Əfşar kimi sərkərdələrimizin adı var. O, düşünülmüş islahatlar apardı, dövləti gücləndirdi və rus qoşunlarını Azərbaycanın sərhədlərindən qovub çıxartdı. Dünya tarixində Hindistanı Makedoniyalı İskəndər, Türk sərkərdəsi Əmir Teymur və bir də Nadir Şah Əfşar ələ keçirib. Bu bizim ordu tariximiz, qəhrəmanlıq tariximizdir. Xalqımızın hərb tarixi çox qədimdir. Hərb tariximizi Cümhuriyyət Ordusunun tarixi ilə bağlamaq olmaz.

**- Bu il martın 31-də azərbaycanlılara qarşı törədilmiş soyqırımın 100 illiyi də tamam olur. Prezident İlham Əliyev bu barədə sərəncam imzalayıb. Bəs bu istiqamətdə hansı tədbirləri həyata keçirəcəksiniz?**

- 31 mart azərbaycanlıların soyqırımı xalqımızın qan yaddaşıdır. Əlbəttə ki, bu istiqamətdə də geniş planlarımız var. Dəfələrlə beynəlxalq konfranslar keçirmişik. Dünya ölkələrinin tanınmış tarixçiləri bu tədbirlərdə iştirak ediblər. Konfranslar Bakıda, Qubada, Şamaxıda, Lənkəranda keçirilib. Aprelin 11-15 tarixlərində növbəti belə konfransı keçirməyi planlaşdırırıq. Soyqırımları ilə əlaqədar yeni silsilə nəşrlərimiz olacaq. XX əsrdə Daşnaksütyunun türk-müsəlman xalqlarına qarşı Şərqi Anadoluda, Cənubi Azərbaycanın Urmiya hövzəsində, Orta Asiyada törətdiyi soyqırımları geniş araşdırılaraq müzakirə olunur. Qərara almışıq ki, tədbirlərimizi Atatürk Araşdırmaları Mərkəzi, Türk Tarixi Qurumu ilə birgə həyata keçirək.

**- Millət vəkili, bir tarixçi kimi ölkənin kütləvi informasiya vasitələrində hərbi vətənpərvərliyin təbliğindən razısınızmı?**

- Uşaqlıq illərim müharibə dövrünə düşüb. Hər addımda divarlarda yazılan "Faşist cəlladlarına ölüm!", "Qələbə bizimlədir!" kimi şüarlara rast gəlirdik. İnsanlar qələbəyə ruhlandırılırdı. Bu gün mediamızda hərbi vətənpərvərlik mövzusu kifayət qədər yer alır. Şanlı ordumuzun, xalqımızın qəhrəmanlıq tarixini, aprel döyüşlərini təbliğ edən verilişlər üreyimcədir. Amma bu elə bir vacib mövzudur ki, ona hərtərəfli diqqət yetirilməlidir. Qarabağ müharibəsinin tarixi, qəhrəmanlarımız, şəhidlərimiz daha geniş təbliğ edilməlidir. Yeri gəlmişkən, Müdafiə Nazirliyinin bu istiqamətdə fəaliyyəti təqdir olunasıdır. Tez-tez bölgələrdə və hərbi hissələrdə kütləvi vətənpərvərlik tədbirlərinin keçirilməsindən xəbər tuturam və bütün bunları alqışlayıram.

**- Bu il Qafqaz İslam Ordusunun Bakını erməni-bolşevik hərbi qüvvələrindən azad etməsinin də yüzilliyi tamam olur. Bu barədə də fikirlərinizi öyrənmək qəzetimizin oxucuları üçün çox maraqlı olar.**

- Bu barədə bəzi faktlara aydınlıq gətirmək istəyirəm. Cümhuriyyətin elan olunduğu ilk vaxtlarda Osmanlı Türkiyəsi qan qardaşlarımız Azərbaycana köməyə gəlməsəydi, erməni daşnaklarının xalqımıza qarşı törətdiyi soyqırımının qarşısını almaq mümkün olmazdı. Qafqaz İslam Ordusunun komandanı Nuru Paşa türk xalqlarının görkəmli sərkərdəsidir. Qafqaz İslam Ordusunun fəaliyyətini araşdırarkən xalqımızın göstərdiyi qəhrəmanlıqları da yaddan çıxartmaq düzgün deyil. Cümhuriyyət zabitləri də Qafqaz İslam Ordusunun tərkibində vuruşub. Xalqımız ona yardıma gələn türk qardaşlarının yanında olmasaydı, lazımi təminatlarını ödəməsəydi, qələbədən danışmaq olardımı? Bu məsələləri ensiklopediyada araşdıranda Bakı əməliyyatına xüsusi diqqət yetirmişəm. Əməliyyatda Bakı ətrafı kəndlərin əhalisi, xüsusilə də Binəqədi, Maştağa camaatı böyük şücaət göstərib. Qafqaz İslam Ordusunun döyüş əməliyyatlarının planının cızılmasında general Ə.Şıxliniski fəal iştirak edib. Əməliyyatın uğurla yerinə yetirilməsi üçün ərazinin relyefinə, yer quruluşuna bələd olmaq çox vacibdir. Ona görə də gənc sərkərdə Nuru Paşanın ətrafında Cümhuriyyət generalları, sərkərdələri toplaşmışdı. Qafqaz İslam Ordusunun fəaliyyətində Azərbaycanın milli ordu hissələrinin rolunu unutmağa haqqımız yoxdur. Həmin döyüşlərdə yüzlərlə şəhid verdik. Qardaş köməyinə gələn türk qardaşlarımızın şəhid məzarlıqları bu gün də ziyarət yerimizdir. Bu günlərdə Türkiyənin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Erkan Özoralın təşəbbüsü ilə Tarix İnstitutunda görüş keçirdik. Görüşümüzdə bu məsələdən də danışdıq. O da bildirdi ki, həqiqətən bu dönəmi qardaşlıq tariximiz kimi araşdırmaq lazımdır.

**- Nəhayət, ənənəvi sualımız: Azərbaycan Ordusunun şəxsi heyətinə arzu və istəkləriniz.**

- Hərbçilərimizə Nadir Şah, Uzun Həsən, Şah Abbas qüdrəti, çəsarəti arzulayıram. Mən həmişə demişəm ki, tarixinə sahib çıxan xalq məğlubedilməzdir. Biz dünyanın elə xalqlarındanıq ki, böyük imperiyalar yaratmışıq. Azərbaycan əsgəri qürur hissi keçirməlidir ki, belə şərəfli, şanlı tarixi olan bir xalqın övladıdır. İnşallah, Ali Baş Komandanın rəhbərliyi ilə nəinki işğal olunmuş yerlərimizə, eləcə də bütün tarixi torpaqlarımıza qayıdacağıq.

**Müsahibəni apardı:**
**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Bakıda NATO-nun təlim kursu keçirilir

*Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə NATO arasında 2018-ci il üçün fərdi tərəfdaşlıq üzrə Əməkdaşlıq Proqramı çərçivəsində fevralın 12-dən Bakıda "Təlimlərin planlaşdırılması" mövzusunda təlim kursu başlayıb.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, şimali Atlantika Alyansının Brunssum şəhərində yerləşən Birləşmiş Qüvvələr Komandanlığının mobil təlim qrupu tərəfindən təşkil edilən tədbirdə iştirakçılara NATO-nun komanda və qüvvə strukturu, təlimlərin konsepsiyası, planlaşdırılması, idarə edilməsi və keçirilməsi, eləcə də digər mövzularda brifinqlər təqdim ediləcək.

Fevralın 16-dək davam edəcək təlim kursunda müxtəlif qoşun növlərindən hərbi qulluqçular iştirak edirlər.

# "Hay ver mənə, cənab leytenant" kitabının təqdimatı

*Cəmşid Naxçıvanski adına Hərbi Liseydə aprel döyüşlərində göstərdiyi igidliyə görə "Azərbaycan Bayrağı" ordeninə layiq görülmüş baş leytenant Əbu-Bəkir İsmayılovun həyat və döyüş yoluna həsr olunmuş "Hay ver mənə, cənab leytenant" kitabının təqdimat mərasimi keçirildi.*

Əvvəlcə C.Naxçıvanski adına Hərbi Liseyin zabit və kursantları, həmçinin şəhidin yaxın qohumları, doğmaları onun ikinci Şəhidlər xiyabanındakı məzarını ziyarət etdilər. Baş leytenant Əbu-Bəkir İsmayılovun məzarının üstünə tər qərənfillər düzüldü, əklil qoyuldu.



Şəhidlər xiyabanını ziyarətdən sonra təqdimat mərasimi başlandı. Ümummilli lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Azərbaycan Respublikasının Dövlət himni ifa edildi.

Cəmşid Naxçıvanski adına Hərbi Liseyin zabiti mayor Natiq Rəhimov tədbir iştirakçılarını salamlayaraq dedi:

- Məktəbimiz yarandığı gündən öz qoynuna igidləri, cəsurları alıb. Bu günə qədər təhsil ocağını bitirən neçə-neçə kursantımız həm döyüşlərdə, həm də xidmətində böyük hünər və rəşadət göstərərək, bir vaxtlar təhsil aldığı məktəbə, sevimli müəllimlərinə başucalığı gətirirlər. Hərbi liseyimizi bitirən neçə-neçə kursantımız "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülüb, neçələri general rütbəsinə qədər yüksəlib.

Cəmşid Naxçıvanski adına Hərbi Liseyin bünövrəsi qoyulandan qəhrəmanlıq ənənələri ilə yaşayır. Hamımıza şəraf gətirən ənənə bu gün də davam edir, sabah da davam edəcək. Bu ənənə nəsildən-nəslə ötürülür. Zaman-zaman qəhrəmanların siyahısına yenilərinin adı yazılır. Biz qəhrəmanlarımızla fəxr edir və öyünürük. Daim onların xatirəsini əziz tutur, adlarını ehtiramla yad edirik. Qəhrəmanlığı, igidliyi onlardan öyrənməyə çalışırıq.

Qəhrəmanlıq tariximizin səhifələrinə böyük hərflərlə yazılmış 2016-cı ilin aprel döyüşlərində Cəmşid Naxçıvanski adına Hərbi Liseyin məzunu olmuş kursantlarımız da böyük hünər və rəşadət göstərdilər. Tarixin şanlı səhifələrində əbədi olaraq qalmış bu qəhrəmanlıqlar hər birimizin qanını coşdurur, bizi torpaqlarımızın müdafiəsinə, düşməndən qisas və intiqam almağa səsləyir.

Bugünkü mərasim də aprel döyüşlərinin qəhrəmanı olmuş baş leytenant Əbu-Bəkir İsmayılovun xatirəsinə həsr olunub. Yazıçı Yaqut Bahadurqızı onun qəhrəmanlığından bəhs edən "Hay ver mənə, cənab leytenant" adlı kitab yazıb. Qəhrəmanlar haqqında belə kitabların yazılması çox müsbət haldır. Çünki onları oxuyan kursantlarımız qəhrəmanlığı, igidliyi "Azərbaycan bayrağı" ordenli baş leytenant Əbu-Bəkir İsmayılov kimi zabitlərdən öyrənir. İnanıram ki, qəhrəmanlardan bəhs edən kitablar bugünkü nəsillərin qəlbində, ürəyində cəsarət və igidlik toxumları əkəcək. Beləcə, Hərbi liseyimizdə qəhrəmanlıq ənənələri zaman-zaman davam edəcək. Bu, belə də olmalıdır, çünki qəhrəmanlıq insan həyatının yaraşığıdır.

Baş leytenant Əbu-Bəkir İsmayılovun müəllimlərindən biri Flora Hüseynova çıxış edərək qəhrəmanın kursantlıq dövründən danışdı, onunla bağlı xatirələrini çözələdi. Xalq artisti Eldost Bayramlı "Hay ver mənə, cənab leytenant" kitabında qəhrəmana həsr olunmuş şeirləri səsləndirdi.

Əbu-Bəkir İsmayılovun C.Naxçıvanski adına Hərbi Liseydə keçirilən son zəng mərasimindəki çıxışının videoyazısı tədbir iştirakçılarına təqdim olundu. Qəhrəmanın müxtəlif illərdə çəkdiriyi şəkillər slayd vasitəsi ilə "Hay ver mənə, cənab leytenant" mahnısının sədaları altında nümayiş etdirildi.

Qəhrəmanın anası Rəna İsmayılova, qardaşı Əkbər İsmayılov və yaxın qohumu Kərim Şükürov çıxış edərək Əbu-Bəkir İsmayılovla bağlı xatirələrini danışdılar. Onun xatirəsini əziz tutduqlarına görə C.Naxçıvanski adına Hərbi Liseyin rəhbərliyinə və ictimaiyyətin nümayəndələrinə minnətdarlıqlarını bildirdilər.

Azərbaycan dili və ədəbiyyatı müəllimi Gülsəda Amanqızının və kursant Seyfəddin Orucovun iştirakı ilə "Əbu-Bəkirin evdə son görüşü" adlı teatrlaşdırılmış səhnəcik nümayiş etdirildi.



Milli Mədəniyyətimizin Təbliği İctimai Birliyinin rəhbəri, filologiya üzrə fəlsəfə doktoru Jalə Cəfərova şəhidlərimizin qəhrəmanlığından və onların təbliğ olunmasından danışdı. Bu istiqamətdə gördükləri işlərdən söz açdı.

"Hay ver mənə, cənab leytenant" kitabının müəllifi Yaqut Bahadurqızı bu qəhrəmanlıq dastanının yazılma prosesindən və işıq üzü görməyindən, əsərin araya-ərsəyə gəlməyindən ətraflı danışdı.

Tədbir iştirakçılarının suallarına cavab verdi.

Kursantlar baş leytenant Əbu-Bəkir İsmayılova, həmçinin qəhrəmanlığa və vətənpərvərliyə həsr olunmuş şeirlər səsləndirdilər, mahnılar ifa etdilər. Tədbirin sonunda üçrəngli bayrağımız marş sədaları altında zala gətirildi.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına Hərbi Lisey**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyə ordusu Suriyanın Afrin bölgəsindəki antiterror əməliyyatlarını genişləndirib



Türkiyə Silahlı Qüvvələri (TSQ) PKK-PYD-YPG-İŞİD terror qruplaşmalarına qarşı Suriyanın Afrin bölgəsində apardığı "Zeytun budağı" əməliyyatlarını daha da genişləndirməyə başlayıb.

TSQ Baş Qərargahının bu qərarı terrorçuların Türkiyə hərbçilərinə qarşı həyata keçirdikləri ardıcıl hücumlarla bağlıdır. Rəsmi məlumata görə, "Zeytun budağı" antiterror əməliyyatına dəstək üçün göndərilən ağır hərbi texnika fevralın 11-də ölkənin Hatay bölgəsinə çatıb. Bundan başqa, Silahlı Qüvvələrin Baş Qərargah rəisi, ordu generalı Hulusi Akar quru və hava qoşun birləşmələrinin komandanları ilə birlikdə Hataydakı ordu qərargahına gələrək Afrindəki vəziyyətin müzakirəsində iştirak edib.

Türkiyə ictimaiyyəti isə Afrin əməliyyatına görə, Silahlı Qüvvələrə dəstək verməkdə davam edir. Afrində şəhid olan hərbçilər böyük izdihamın müşayiətilə dəfn olunurlar. Könüllü olaraq antiterror əməliyyatlarına qoşulmaq üçün müraciət edənlərin sayı minlərlədir. Terrorçuların son günlər mülki əhali arasında gizlənərək Türkiyə əsgərlərinə arxadan hücum etməsi böyük nifrət və qəzəblə qarşılanıb.

## Misir ordusunun keçirdiyi əməliyyat zamanı 16 terrorçu məhv edilib



Misir hərbçilərinin ölkənin Daxili İşlər Nazirliyinin dəstəyi ilə Sinay yarımadasının şimalında və mərkəzi hissəsində keçirdiyi irimiqyaslı antiterror əməliyyatı nəticəsində 16 ekstremist məhv edilib, dörd terrorçu həbs olunub və 30-dan çox şübhəli şəxs saxlanılıb.

Misir Silahlı Qüvvələrinin bununla bağlı bəyanatında qeyd edilir ki, terrorçuların istifadə etdiyi 66 obyektə zərbələr endirilib və 12 partlayıcı qurğu zərərləşdirilib. Həmçinin partlayıcı maddələr, silah və hərbi sursat bazaları, partlayıcı maddələrin hazırlanması üçün gizli laboratoriya və onlarla nəqliyyat vasitəsi məhv edilib.

Qeyd edək ki, Prezident Əbdülfəttah əs-Sisinin tapşırığına uyğun olaraq Misir ordusu Sinay yarımadasının şimalında və mərkəzi hissəsində, həmçinin Nil çayının delta rayonunda və qərbdəki səhralıq rayonlarda fevralın 9-da irimiqyaslı "Sinay-2018" antiterror əməliyyatına başlayıb.

## İran yeni nəsil pilotsuz uçan aparat təqdim edib



İran ordusuna "Mühacir" adlı yeni nəsil pilotsuz uçan aparat təqdim edilib.

İran İslam İnqilabının 39-cu ildönümü münasibətilə təqdim edilən yeni pilotsuz uçan aparat bir sıra texniki göstəricilərinə görə fərqlənir.

Yerli mətbuat qeyd edir ki, yeni aparat foto və video çəkilişlər aparıb qərargaha ötürməklə yanaşı, bombardmançı funksiyası da yerinə yetirə bilər. İran İnqilabı Keşikçiləri Korpusuna təqdim olunan aparatdan sərhədlərin mühafizəsi və terrora qarşı əməliyyatlarda istifadə ediləcək.

## Rusiyada göyərtəsində 71 nəfərin olduğu təyyarə qəzaya uğrayıb



Rusiyanın "Saratov Hava Yolları" aviaşirkətinə məxsus An-148 sərnişin təyyarəsi Domodedovo hava limanından uçduqdan dərhal sonra radarlardan itib.

Təyyarə Moskva ətrafında Ramensk rayonunda qəzaya uğrayıb. Təyyarənin göyərtəsində 65 sərnişin və 6 ekipaj üzvü olub. Qəzadan sağ qurtaran yoxdur.

**AZƏRTAC-ın materialları əsasında**

# Milli Qəhrəmanın xatirəsinə həsr olunmuş basketbol turniri

*Cəmşid Naxçıvanski adına Hərbi Liseydə Azərbaycanın Milli Qəhrəmanı Rasim İbrahimovun xatirəsinə həsr olunmuş basketbol turniri keçirildi.*



C.Naxçıvanski adına Hərbi Liseyin idman rəisi Fərhad Əliyev çıxış edərək Azərbaycanın Milli Qəhrəmanı Rasim İbrahimovun həyat və döyüş yolu barədə tədbir iştirakçılarına ətraflı məlumat verdi:

- 18 aprel 1962-ci ildə Bakı şəhərində neftçi ailəsində anadan olub, 131 saylı orta məktəbin səkkizinci sinfini, Cəmşid Naxçıvanski adına Hərbi Liseyi və indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi bitirib. Kursant kimi təlimlərdə fəal iştirak edib, zabitlik peşəsinin incəliklərini və hərbi texnikanın sirlərini həvəslə öyrənib. 1983-cü ildə Almaniyaya hərbi xidmətə göndərilib. Motoatıcı taqımın komandir müavini kimi xidmətə başlayan gənc zabit Vətəndən uzaqda olsa da, çalışırdı ki, mənsub olduğu xalqın adını həmişə böyük şərəflə ucaltsın. 1988-ci ildən xidmətini doğma Vətəndə qavam etdirir.

Həmin vaxtlar erməni silahlı birləşmələri tez-tez Azərbaycanın sərhəd bölgələrinə hücum edir, kəndləri atəşə tutur, sakinləri öldürürdülər. Rasim İbrahimov bu çətin vaxtda Füzuli rayonunda könüllü özünümüdafiə taboru yaradır. Yeni yaranan tabor əsasən Füzuli rayonunun kənd və qəsəbələrini qoruyurdu. Döyüşlərdə göstərdiyi şücaət və igidliyə görə Rasim İbrahimova mayor rütbəsi verilir.

Tabor 1992-ci il iyunun 26-da Tuğ kəndinin müdafiəsinə atılır. İki-üç saat davam edən döyüşdə düşmənə ağır zərbələr vurulur və bir neçə mühüm dayaq nöqtəsi işğalçılardan azad edilir. Əlavə qüvvələr köməyə gəlmədiyinə görə tabor mühasirəyə düşür. Cəsur komandir döyüşçülərinin mühasirədən sağsalamat çıxması üçün dəhliz açır. Vəziyyətin ümidsiz olduğunu görən Rasim İbrahimov son anda ermənilərin əlinə keçməmək üçün əl qumbarasını sinəsinə sıxır. Həm özü şəhid olur, həm də bir neçə erməni işğalçısını məhv edir. Cəsur komandir həyatının son anında "Azərbaycan zabiti heç vaxt düşmənə təslim olmaz!" - deyir...

Azərbaycan Respublikası Prezidentinin 16 sentyabr 1994-cü il tarixli fərmanı ilə döyüşlərdə göstərdiyi şücaətə və igidliyə görə Rasim Səxavət oğlu İbrahimova ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir. Qəhrəmanlar hamımıza örnəkdir. Qəhrəmanın xatirəsinə həsr olunmuş bu yarış ona ehtiramımızın ifadəsidir. İnanıram ki, kursantlarımız bu yarışlarda qəhrəmanın adına layiq mübarizlik nümayiş etdirəcəklər.

İdman rəisi Fərhad Əliyev onu da bildirdi ki, Azərbaycanın Milli Qəhrəmanı Rasim İbrahimovun xatirəsinə həsr olunmuş yarışa 9 komanda qatılıb.

...Birinciliyin final mərhələsində 4-cü bölüklə 6-cı bölük qarşılaşdı. Gərgin keçən mübarizədən sonra 4-cü bölüyün kursantları qalib adını qazandılar. Birinciliyin nəticələri elan olundu: 1-ci yer 4-cü bölük, 2-ci yer 6-cı bölük, 3-cü yer 2-ci bölük.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına Hərbi Lisey**

*Hərbi texnikalar, silahlar*

# Motoatıcıların müasir silahı - PDM T-15

Piyadaların müasir T-15 piyada döyüş maşını "Armat" T-14 tankının bazası əsasında hazırlanıb. Görkəminə görə motoatıcı bölmələrin daşınması üçün cihazlanmış zirehli transportyordur. Digər tərəfdən isə müxtəlif silahlanma ilə təchiz edilməsi və güclü zirehlənməsi onun ağır döyüş maşını olduğunu göstərir. PDM T-15 öz analoqlarından taktiki-texniki xüsusiyyətlərinə görə fərqlənir. O, tank zirehinə malikdir və nəinki daşınan piyadaların davamlı mühafizəsini təmin edir, hətta onlarla birlikdə praktiki olaraq düşmənə qarşı mübarizə apara bilir. Müasir döyüş nəqliyyat vasitəsinin çəkisi 48 tondur. Belə bir çəkiyə malik olmasına baxmayaraq sürəti saatda 70 kilometrə qədərdir. Onun güclü mühərriki maşının yüksək manevrliyini təmin edir. Gövdəsinin arxa hissəsi piyadaların daşınması üçün avadanlıqlarla təchiz edilib. Sərnişin üçün nəzərdə tutulmuş bölməsində sərbəst olaraq tam təchiz edilmiş 7-9 nəfər döyüşçü yerləşdirilə bilər. Ayrıca diqqəti çəkən isə döyüş maşınının qülləsidir. Burada avtomatlaşdırılmış "Epoxa" modulu quraşdırılıb. Modulda bütün silahlanma və cihazlanma kompleksi distansion olaraq həyata keçirilir. Döyüş modulları zirehli texnikanın hər tərəfində quraşdırılır.



"Epoxa" döyüş modulunda Kalaşnikov tank pulemyotu və bundan başqa "Kornet-EM" TƏİR-nin dörd buraxıcı qurğusu quraşdırılıb. Səhra sınaqları zamanı yeni texnikada "Ataka" TƏİR-lə və 57 mm-lik avtomat topla təchiz olunması qərara alınıb. Belə silahlanma yüngül zirehli texnikanı uğurla məhv etməyə qadir olacaq. Nəqliyyat vasitələrinin qorunmasında əsas işi "Afranit" aktiv mühafizə sistemi və ikiqatlı zirehli "Malaxit" sistemi yerinə yetirir. Hər iki sistem müdafiə xətti üçün etibarlıdır.

Maşının zirehli gövdəsi kompozit materialdan və poladdan hazırlanıb. Əlavə olaraq maşında manevələrin qarşısını almaq üçün göstərici cihaz da quraşdırılıb. Hansı ki, yaxına gələn tankəleyhinə raketlərin uçuş kursunu məhv etməyə qadirdir. Döyüş maşını minaəleyhinə mühafizə ilə də təchiz edilib.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan cüdoçusu Fransada keçirilən "Böyük dəbilqə" turnirində medal qazanıb



Fransanın paytaxtı Parisdə cüdo üzrə "Böyük dəbilqə" yarışı keçirilib.

Beynəlxalq turnirdə 71 ölkədən 399 cüdoçu mübarizə aparıb.

Azərbaycanın cüdo üzrə milli komandası mötəbər çempionatda bir bürünc medal qazanıb. 78 kiloqramdan yuxarı çəki dərəcəsində yarışan qadın cüdoçumuz İrina Kindzerska Paris turnirində üçüncü yeri tutub. ABŞ, Belarus və Fransa idmançılarına qalib gələn Azərbaycan cüdoçusu yalnız Yaponiya təmsilçisinə məğlub olaraq ölkəmizə bürünc medal qazandırıb.

## "Nur" komandası uzun fasilədən sonra "Azəryol" kollektivini məğlub edib

Qadın həndbolçular arasında Azərbaycan çempionatında XI turun oyunları keçirilib.

Mingəçevirdə yerləşən "Kür" Olimpiya İdman Mərkəzində son ölkə çempionu "Nur" kollektivi "Azəryol" komandasını qəbul edib. Gözlənildiyi kimi gərgin və maraqlı idman mübarizəsi şəraitində keçən görüşün ilk hissəsi ev sahiblərinin üstünlüyü ilə bitib - 11:9. Fasilədən sonra vəziyyəti öz xeyirlərinə dəyişməyə çalışan qonaqlar çox çalışsalar da, istəklərinə nail ola bilməyiblər. Beləliklə, ümumi nəticədə Mingəçevir təmsilçisi 22:20 hesabı ilə qalib gəlib.

Bu nəticələrdən sonra aktivlərində 16 xal olan "Azərsu" və "Azəryol" komandaları turnir cədvəlində birinci-ikinci yerləri bölüşürlər. "Qarabağ" kollektivi 13 xalla üçüncü, ondan bir xal geri qalan "Nur" həndbolçuları isə dördüncü pillədə qərarlaşıblar. "Gənclər Birliyi" 4 xalla beşinci, "İdman Akademiyası"nın yetirmələri 2 xalla sonuncudur.

## "Təxti Kuboku"nda sərbəst güləşçilərimiz 4 bürünc medal qazanıblar



Təbrizdə böyüklər arasında sərbəst güləş üzrə ənənəvi "Təxti Kuboku" beynəlxalq turniri keçirilib.

23 ölkədən 190-a yaxın idmançının iştirak etdiyi turnirdə təmsilçilərimiz də mübarizə aparıblar.

Yığmamızın üzvləri turniri 4 bürünc medalla başa vurublar. Coşqun Əzimov (70 kq), Murad Süleymanov (79 kq), Hacımurad Məhəmmədsəidov (86 kq) və Roman Bəkirov (97 kq) fəxri kürsüdə yer alıblar.

Görüşlərin idarə edilməsində Azərbaycanı beynəlxalq dərəcəli hakim Babək Allahverdiyev təmsil edib.

## Qılıncoynadanlarımız Ukraynada birincilikdə iştirak edirlər



Ukraynanın Xmelnitski şəhərində yeniyetmələr arasında qılıncoynatma üzrə açıq birincilik keçirilir.

Yarışda məşqçi Sudef Quliyevin rəhbərliyi altında şpaqaçılarımız da iştirak edirlər.

Birincilikdə ölkəmizi Xalid Əliyev, Barat Quliyev, Cavid Cahangirov, Fərrux Səfərov, Azərin İdriszadə, Məryəm Sadıxova, Məryəm Məlikova və Nazilə Rəhimova təmsil edirlər.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 51
Nüsxə 3500